

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 149 (21.810)

9 avqust 2017-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasında rəsmi səfərdə olan Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovun avqustun 8-də rəsmi qarşılanma mərasimi olub.

Rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovun təkbətək görüşü olub.

* * *

Həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkmənistanın Prezidenti Qurbanqulu Berdiməhəmmədovun nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olub.

* * *

Avqustun 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkmənistanın Prezidenti Qurbanqulu Berdiməhəmmədovun iştirakı ilə Azərbaycan-Türkmənistan sənədlərinin imzalanması mərasimi olub.

Azərbaycan-Türkmənistan sənədlərinin imzalanması mərasimindən sonra Prezident İlham Əliyev və Prezident Qurbanqulu Berdiməhəmmədov mətbuata bəyanatlarla çıxış ediblər.



## Şərur rayonunun üç kəndində kompleks quruculuq tədbirləri həyata keçirilir

***Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illəri əhatə edən sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrası muxtar respublikada uğurla həyata keçirilir. Bölgədə aparılan geniş miqyaslı tikinti-quruculuq işlərindən Şərur rayonuna da pay düşüb. Bunun nəticəsidir ki, rayon mərkəzi Şərur şəhəri və bölgənin kənd yaşayış məntəqələri günü-gündən öz simasını dəyişərək gözəlliyə, abadlığa və müasirliyə qovuşur.***





Cari ildə rayonun daha 3 kəndində kompleks quruculuq tədbirləri aparılır. Bu yaşayış məntəqələrindən biri Qarahəsənli kəndidir. Burada yenidən qurulan məktəb binası 198 şagird üçün nəzərdə tutulub. İki mərtəbədən ibarət olacaq bu tədris müəssisəsinə bir korpus da əlavə edilir. Məktəbdə geniş və işıqlı sinif otaqları, fənn kabinələri, kompüter otağı və elektron lövhəli siniflər, kitabxana, bufet olacaqdır.

Kənd mərkəzi üçün tikilən ikimərtəbəli yeni binada da layihədə nəzərdə tutulan bütün işlər görülür. Burada inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə, Yeni Azərbaycan Partiyasının ərazi ilk təşkilatı, mədəniyyət evi, kitabxana, iclas zalı, feldşer-mama və baytarlıq məntəqələri, poçt, ATS, polis sahə müvəkkili üçün otaqlar inşa edilir.

Kənddə tikilən daha bir obyekt isə birmərtəbəli xidmət evidir. Burada ərzaq və təsərrüfat malları mağazaları, ət satışı dükanı, bərbərxana və qadın gözəllik salonu fəaliyyət göstərəcək. Hər üç obyektin istilik sistemi ilə qızdırılması üçün iki qazanxana da inşa olunur. Həyətdə abadlıq işləri görüləcək, yaşıllıq və gülkarlıqlar üçün yerlər düzəldiləcəkdir. Piyada yollarına isə kilid daşlar, kənarlarına bordürlər düzüləcəkdir.

Rayonun Ələkli kəndinə gələnlər bu kəndi büsbütün başqa bir görkəmdə görürlər – bura əsl tikinti meydançasını xatırladır. Kəndin mərkəzində yerləşən tam orta məktəb binası sökülüb, yerində üçmərtəbəli 216 şagird yerlik yeni təhsil ocağının inşasına başlanıb. Binada işıqlı sinif otaqları, müxtəlif laboratoriyalar, kompüter və elektron lövhəli siniflər, hərbi kabinə, idman zalı, pedaqoji kollektiv üçün otaqlar, yeməkxana müəllim və şagirdlərin ixtiyarına veriləcəkdir.

Ələklidə həm də ikimərtəbəli kənd mərkəzi və xidmət mərkəzi üçün bina inşa olunur.

Yeniləşən digər yaşayış məntəqələrində olduğu kimi, bu kənddə də yol əsaslı şəkildə yenidən qurulacaq, su, qaz, rabitə, elektrik xətləri təzələnəcəkdir.

Quruculuq işlərindən Arazqırağı yaşayış məntəqəsi olan Ərəbyengicə kəndinə də pay düşüb. İndi kəndin sakinləri böyük sevinc içərisindədirlər. Burada kompleks quruculuq tədbirlərinə başlanmasını onlar kənd sakinlərinə göstərilən dövlət qayğısı kimi dəyərləndirirlər. Bunlardan biri 192 şagird üçün nəzərdə tutulmuş üçmərtəbəli məktəb binasıdır. Obyektdə tikinti işlərinin böyük bir hissəsi başa çatdırılıb, dam örtüyü vurulub, qapı-pəncərələr asılıb, daxildə suvaq işlərinə başlanılıb.

Məktəb binasının yaxınlığında inşa edilən digər bir obyekt kənd mərkəzi üçün nəzərdə tutulub. Bina iki mərtəbədən ibarət olacaq. Birinci mərtəbədə ATS, poçt, baytar və polis otaqları, kitabxana, fərdi qazanxana sistemi yerləşdiriləcək. İkinci mərtəbədə inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, klub fəaliyyət göstərəcək. Kənd mərkəzində əsas işlər başa çatıb, içəridə suvaq və rəngləmə aparılır.

Digər bir binadan isə kənd sakinləri xidmət mərkəzi kimi istifadə edəcəklər. Burada sənaye və ərzaq məhsulları mağazaları, ət satışı dükanı, bərbərxana və qadın gözəllik salonu fəaliyyət göstərəcək. Obyektdə artıq hörgü işləri tamamlanmaq üzrədir.

Ərəbyengicədəki kompleks quruculuq tədbirləri Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Şərur Rayon İdarəsinin kollektivinə həvalə olunub. İdarənin iş icraçısı Mübariz Ağayev bildirdi ki, lazım olan tikinti materialları, kifayət qədər işçi qüvvəsi və texnika ilə təmin edilən obyektlərin tikilib başa çatdırılması üçün inşaatçılara hərtərəfli şərait yaradılıb. Onlar öhdələrinə götürdükləri işi vaxtında təhvil vermək üçün səy və bacarıqlarını əsirgəmirlər.

Muxtar respublikamızda genişmiqyaslı abadlıq və quruculuq işləri sırasında tarix-mədəniyyət abidələrinə diqqət və qayğı xüsusi yer tutur. Şərur rayonunun Yengicə kəndindəki qədim hamamın təmir və bərpası da bu qayğının ifadəsidir.

Məlumat üçün bildirək ki, hamam kəndin mərkəzində böyük bir ərazini əhatə edən Çarşıbazarın başlanğıcında Şərq memarlığı üslubunda XVIII əsrdə inşa olunub. Hamamın ümumi sahəsi 650 kvadratmetr, içərisinin sahəsi 545 kvadratmetrdir. Bu tarixi bina düzbucaqlı formada olmaqla, iki səkkizbucaqlı zala və onlara bitişik iki köməkçi otağa bölünür. Zalları örtən sferik günbəzlər, girişdəki sadə formalı baştağ və digər köməkçi otaqlar qismən dağıntıya məruz qalsalar da, hamamın daxili planı yaxşı vəziyyətdədir. Bu da abidənin ilkin quruluşunu hərtərəfli bərpa etməyə imkan verəcəkdir.

✍ Ramiyyə ƏKBƏROVA

***Avqustun 8-də Şahbuz Rayon İcra Hakimiyyətində Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyi ilə birgə rayonda sığorta işinin təşkili və qarşıda duran vəzifələr barədə tədbir keçirilib.***

## Sığorta fəaliyyətinin təşkili müzakirə edilib



Şahbuz Rayon İcra Hakimiyyətinin başçısı Rəfael Babayev tədbiri açaraq sığorta fəaliyyətinin əhəmiyyətindən danışıb. Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyinin baş direktoru Hikmət Əsgərov çıxış edərək sığorta fəaliyyətinin muxtar respublikamızın sosial-iqtisadi inkişafındakı rolundan bəhs edib. Baş direktor vurğulayıb ki, muxtar respublikamızda sığorta işinin təkmilləşdirilməsi və müasir tələblərə uyğun şəkildə genişləndirilməsi işində 2011-ci il 30 noyabr tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisində "Muxtar respublikada sığorta fəaliyyəti və qarşıda duran vəzifələr barədə" keçirilən müşavirənin xüsusi əhəmiyyəti vardır.

Bildirilib ki, sığorta münasibətlərinin tənzimlənməsi və müasir tələblərə uyğun şəkildə təkmilləşdirilməsi daim dövlətin diqqət mərkəzindədir. Sığorta müxtəlif gözlənilməz hadisələr nəticəsində dəymiş maddi zərərlərin əvəzinin ödənilməsinə xidmət edir. Vətəndaşlar vaxtında öz daşınmaz əmlakını, avtonəqliyyat vasitələrini, mülki məsuliyyətini icbari qaydada sığortalamaqla baş verən gözlənilməz hadisələrdən dəymiş maddi zərərlərin ödənilməsinə təminat alırlar. Ötən müddətdə Şahbuz rayonunda da bu istiqamətdə müəyyən işlər görülüb. Belə ki, Şahbuz rayonu üzrə cari ilin ilk 6 ayı ərzində, ümumilikdə, 1111 ədəd sığorta müqaviləsi bağlanılıb. Onlardan 350-si avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə, 467-si isə daşınmaz əmlakın icbari sığortası üzrə bağlanılıb.

Rayonda daşınmaz əmlakın icbari sığortası, avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası, ev əmlakı, fərdi qəza sığortaları və digər sığorta növləri üzrə mövcud vəziyyət təhlil olunaraq vurğulanıb ki, əldə edilmiş nəticələrlə bərabər, rayonda hələ də daşınmaz əmlakın icbari sığortası və istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortası, avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə sığorta olunmayan hüquqi və fiziki şəxslər qalmaqdadır. Ölkəmizdə qüvvədə olan qanuna əsasən icbari qaydada sığorta olunmalı olan hər bir obyektin sığortası təmin edilməlidir.

Tədbirdə könüllü sığortaların, o cümlədən kənd təsərrüfatı sığortasının da əhəmiyyətinə toxunulub. Bildirilib ki, Şahbuz rayonunda bu sahədə fermer və torpaq mülkiyyətçiləri, kənd təsərrüfatı texnikaları sahibləri ilə aparılan maarifləndirmə işləri genişləndirilməlidir. Bütün bu sığorta növlərinin inkişafı, son nəticədə, vətəndaşların yaşayış səviyyəsinin yüksəldilməsinə xidmət edir.

Sonra Şahbuz Rayon Dövlət Yanğın Təhlükəsizliyi Şöbəsinin rəisi Razim Vəliyev, Şahbuz Rayon Polis Şöbəsinin Təşkilat-inspeksiya, uçot-qeydiyyat və statistika işləri üzrə qrupun baş inspektoru, polis baş leytenantı Əhməd Məmmədov, Şahbuz Rayon Dövlət Sığorta Agentliyinin direktoru Nuran Xəlilov çıxış edərək görülən işlərdən söhbət açıblar. Şahbuz şəhər, Badamlı qəsəbə, Kolanı, Ayrınc kənd icra nümayəndələri icbari sığorta müqavilələrinin bağlanılması vəziyyəti barədə məlumat veriblər.

Şahbuz Rayon İcra Hakimiyyətinin başçısı Rəfael Babayev görülmüş işlərdən danışaraq aidiyyəti orqanlara sığorta işinin genişləndirilməsi üçün müvafiq tapşırıqlar verib.

✍ Əli CABBAROV

## Rabitə xidmətinin səviyyəsi yüksəldilir

Ordubad rayonunda əhaliyə göstərilən rabitə xidmətinin səviyyəsini yüksəltmək üçün cari ildə də məqsədyönlü tədbirlər həyata keçirilib. Belə ki, 27 ATS vasitəsilə bölgə sakinlərinə xidmət göstərilən rayonun bütün yaşayış məntəqələri internetlə təmin edilib. İlin ilk 6 ayı ərzində 80 ədəd məftilli telefon xətti çəkilərək abunəçilərin sayı 8 min 335 nəfərə,76 ədəd sürətli internet çəkilərək abunəçilərin sayı 2 min 784 nəfərə çatdırılıb. Bəhs olunan dövrdə 100 metr fiber-optik kabel salınıb, 1090 metr böyüktutumlu, 6 min 60 metr kiçiktutumlu kabellərdən istifadə olunub. 41 ədəd dəmir dayaq basdırılıb, taxta dayaqlar yenisi ilə əvəz edilib. 32 ədəd abonent qutusu, 17 ədəd paylayıcı şkaf qoyulub.

Rayon üzrə informasiya və rabitə xidmətlərinin dəyəri 2159,1 min manat olub ki, bu da 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 1,8 faiz çoxdur.

Ötən yarımildə poçt bölmələrinin avtomatlaşdırılması ilə əlaqədar abonentlərin elektrik və qaz sərfiyyatı üzrə ödəmələri poçt bölmələrində qəbul edilir və kompüterlər vasitəsilə məlumat hesablama mərkəzinə ötürülür. Rayonda fəaliyyət göstərən 21 poçt bölməsindən 19-da POS-terminallar quraşdırılıb. Bu da əhalinin kommunal xərclərinin bankomat kartları vasitəsilə ödənilməsinə imkan yaradıb.

Ordubad şəhərində yeni, müasir tələblərə cavab verən Rabitə evinin tikintisi başa çatdıqdan sonra əhaliyə göstərilən xidmətlərin səviyyəsi daha da yüksələcəkdir.

Xəbərlər şöbəsi

# “Toxumçuluq haqqında” Naxçıvan Muxtar Respublikasının Qanunu aqrar sektorun sağlam təməllər üzərində inkişafına zəmin yaradır

***Ötən ayın sonunda muxtar respublikamızda aqrar sahənin inkişafı üçün mühüm addım atıldı. Belə ki, “Toxumçuluq haqqında” Naxçıvan Muxtar Respublikasının 2017-ci il 25 iyul tarixli Qanununun tətbiq edilməsi barədə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən Fərman imzalandı. Qanun Naxçıvan Muxtar Respublikasında toxum istehsalının, tədarükünün və istifadəsinin hüquqi əsaslarını müəyyən edir. Bəs toxumçuluq haqqında qəbul edilmiş bu qanun özündə nəyi ehtiva edir və məqsəd nədən ibarətdir? Qanunun qəbul edilməsi muxtar respublikanın aqrar sektorunda hansı müsbət dəyişikliklərin əldə olunmasına imkan verəcək?***

Əvvəlcə onu vurğulamaq lazımdır ki, bu gün ərzaq təhlükəsizliyinin təmin edilməsi hər bir ölkə və ya region üçün həyati əhəmiyyətli bir məsələyə çevrilib. Çünki etibarlı ərzaq təminatı istənilən ölkənin sabitliyinin və sosial dayanıqlılığının başlıca şərtidir. Ona görə də əhalinin əsas ərzaq məhsullarına olan tələbatının tam ödənilməsi üçün davamlı olaraq müvafiq tədbirlərin həyata keçirilməsi çox vacibdir.

Məlumdur ki, son bir neçə ildə aparıcı ölkələrin maliyyə bazarlarında baş verən neqativ meyillər, habelə əhalinin sayının çoxalması nəticəsində ərzaq məhsullarına olan tələbatın yüksəlməsi, iqlim dəyişkənliyi, su ehtiyatlarının məhdudluğu və digər səbəblərə görə əsas ərzaq məhsullarının dünya bazarlarında qiymətləri artmağa başlayıb, bəzi ölkələrdə ərzaq qıtlığı real təhlükəyə çevrilib. BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının məlumatına görə, əgər 1950-1985-ci illərdə ərzaq istehsalının illik artımı 30 milyon ton, 1985-1995-ci illərdə 12 milyon ton təşkil edirdisə, 2030-cu ilədək bu göstərici cəmi 9 milyon ton səviyyəsində olacaq. Rəqəmlər onu göstərir ki, dünya üzrə illik ərzaq istehsalının artımı minimal istiqamətdə dəyişir. Məhz bu nöqteyi-nəzərdən yanaşsaq, ölkəmizdə, eləcə də muxtar respublikamızda əhalinin etibarlı ərzaq təhlükəsizliyi sahəsində atılan addımların mahiyyətini bir daha dərk etmiş olarıq. Burada əsas məsələ ondan ibarətdir ki, lazımi iqlim qurşaqlarına, münbit torpaqlara malik ölkəmizdə aqrar sahə davamlı inkişaf etdirilsin.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2008-ci il 17 sentyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş “2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı”nın muxtar respublikanın ərzaq təhlükəsizliyinin təmin edilməsi baxımından müstəsna rolu olub. Həmin proqramda əkinəyararlı torpaq sahələrindən səmərəli istifadə olunması, bitkiçiliyin, xüsusən taxılçılığın, meyvəçiliyin, tərəvəzçiliyin, üzümçülüyün, heyvandarlığın, o cümlədən ət və süd məhsulları istehsalının inkişaf etdirilməsi üzrə nəzərdə tutulmuş tədbirlərin vaxtında və uğurla həyata keçirilməsi regionda ərzaq məhsullarının istehsalında artıma və əhalinin keyfiyyətli və təhlükəsiz ərzaq məhsullarına tələbatının tam ödənilməsinə şərait yaradıb. Hazırda icrası davam etdirilən Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 1 sentyabr tarixli Fərmanı ilə təsdiq edilmiş “2014-2018-ci illərdə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı Dövlət Proqramı” da digər sahələrlə yanaşı, muxtar respublikada kənd təsərrüfatı məhsullarının istehsalı baxımından böyük əhəmiyyət kəsb edir. “Toxumçuluq haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun qəbul olunması isə kənd təsərrüfatı məhsullarının istehsal həcminin yüksəldilməsi, eyni zamanda ərzaq təhlükəsizliyinin təmin olunmasına kompleks yanaşmanı ortaya qoyur.

Qeyd edək ki, adıçəkilən qanunda toxumçuluğun məqsədi yüksək məhsuldarlığa və sabit irsi əlamətlərə malik, xəstəliyə, ziyanvericilərə və müxtəlif iqlim şəraitinə dözümlü bitki sortları yetişdirmək və onların çoxaldılmasını təmin etməkdir. Toxumçuluğun vəzifəsi isə dövlət reyestrinə daxil edilmiş bitki sortlarının sort təmizliyini, bioloji və məhsuldarlıq keyfiyyətlərini saxlamaq üçün sortdəyişmə və sorttəzələməni həyata keçirməklə toxumların kütləvi artırılmasından ibarətdir.

Qanunda əsas maddələrdən biri toxumçuluğa dövlət nəzarətini həyata keçirməkdir. Belə ki, Naxçıvan Muxtar Respublikası Dövlət Toxumçuluq Xidmətinin toxumçuluq subyektlərinin fəaliyyətini əlaqələndirmək, tələb və təkliflər nəzərə alınmaqla, dövlət, yerli və sığorta toxum fondlarının yaradılması üçün təkliflər hazırlamaq, toxumçuluğa dair standartlar, normativlər, əsasnamələr və təlimatlar hazırlamaq, toxum bazarının konyunkturunu öyrənmək, təhlil etmək və digər vəzifələri müəyyənləşdirilib.

Burada əsas hədəflərdən biri muxtar respublikada toxumçuluq sisteminin yaradılmasıdır. Hazırda inkişaf etmiş ölkələrin hər birinin özünəməxsus toxumçuluq sistemi var. Bu sistem orijinal, super elit, elit və reproduksiyalı toxumlar istehsalından, sığorta fondunun və dövlət toxum ehtiyatlarının yaradılmasından ibarətdir. Müxtəlif bitki sortlarının toxum istehsalının xüsusiyyətləri toxumçuluq sisteminin yaradılması zamanı nəzərə alınır və müvafiq icra hakimiyyəti orqanının normativ aktları ilə tənzimlənir.

Toxumçuluq son 10-15 ildə dünya iqtisadi məkanında ən çox müzakirə olunan mövzulardan biridir. Bunun da bir sıra səbəbləri var. Əsas səbəb isə əhali tərəfindən istehlak olunan kənd təsərrüfatı məhsullarının istehsalında keyfiyyətli, orqanizm üçün faydalı toxum növlərindən istifadə olunmasıdır. Əks-təqdirdə hazırda əksər dünya ölkələrini cənginə almış transgen məhsullardan istifadədən sığortalanmaq da çətindir. Aparılan araşdırmalara görə, düzgün bölüşdürüləcəyi halda indikindən daha çox əhalini təmin edə biləcək qədər qida ehtiyatları ədalətsiz bölünmə nəticəsində planetdəki bütün insanların ehtiyacını ödəmir. Təkcə ABŞ və Böyük Britaniyada zibilliyə atılan yararlı qida məhsulları 1 milyarda yaxın insanı qida ilə təmin edə bilər ki, elə dünyada da bu qədər adam aclıqdan əziyyət çəkir. Bunu əldə bayraq edən bəzi transmilli şirkətlər biotexnologiyanın imkanlarından istifadə edərək məhsul bolluğu yaratmağa çalışdıqlarını bəyan edirlər. Lakin bu bolluq aclıqdan daha dəhşətli bəlanı özü ilə gətirir. Burada söhbət genetik modifikasiya olunmuş (GMO) məhsullardan gedir.

GMO məhsullar bir orqanizmdən digərinə DNT köçürmək, yaxud bir orqanizmə aid DNT-nin biotexnologiya vasitəsilə dəyişdirilməsi deməkdir. Orqanizmdəki hər hansı bir funksiya, ya da bir xüsusiyyət genetik olaraq dəyişdirilə və ya genetik modifikasiya ilə başqa bir orqanizmdə fəaliyyət göstərə bilər. GMO-nun yaradılması üçün əvvəlcə bir hüceyrədən sözügedən geni əldə etmək lazımdır. Daha sonra bu gen əvvəlcədən seçilmiş orqanizmdə çoxaldılır. Orqanizm artıq bu yeni geni istehsal etməyə başlayır. Bəzən məhsulların genini dəyişməklə onu mövcud olduğu ərazinin şərtlərinə uyğunlaşdırırlar. Məsələn, Arktikadakı bir balığın soyuğa müqavimət geni bir çiyələyə köçürüləndə soyuğa daha dözümlü bir giləmeyvə əldə edilmiş olur. GMO-nu yaradanlar onun bəşəriyyət üçün yararlı olduğunu iddia edirlər. Belə ki, genin dəyişdirilməsi sayəsində məhsullar daha gözəgəlimli və dözümlü hala gətirilir ki, bu da xeyli iqtisadi gəlir gətirir. GMO istehsalçıları hesab edirlər ki, bu məhsullarla dünyada aclığı, qıtlığı aradan qaldırmaq mümkündür. Həqiqət isə ondan ibarətdir ki, geni dəyişdirilmiş məhsullar hesabına dünyada adı tibb elminə məlum olan və ya olmayan bir çox xəstəliklərə düçar olan insanların sayı durmadan artır. Bu gün Amerika, Kanada, Argentina, Avstraliya, Çin və Cənubi Afrika başda olmaqla, bir çox dünya ölkələrində geni dəyişdirilmiş bitkilər istehsal edilir. GMO-nun qadağan edildiyi ölkələr də az deyil, Belarus, Tailand, Yeni Zelandiya, İtaliya, Fransa, İsveçrə kimi dövlətlər bu məhsulların ölkəyə giriş və çıxışına, istehsal və istehlakına qadağa qoyub. Azərbaycan da öz əhalisinin genofondunu və sağlamlığını qorumaq üçün belə qadağalar tətbiq edib.

Qeyd edək ki, BMT-nin müvafiq təşkilatının hesablamalarına görə, hazırda dünya əhalisinin 70 faizindən çoxunun GMO mənşəli məhsullarla qidalandığı ehtimal olunur. Bəzi ölkələrdə, məsələn, Rusiya və Ukraynada geni dəyişdirilmiş məhsulun xüsusi işarələnməsi qaydaları tətbiq olunur. Qaydalara əsasən istehsalçı məhsulun üzərində geni dəyişdirilmiş orqanizmin olması haqqında məlumat yerləşdirməlidir. Bu işarələri görən insanlar belə məhsulları almaqdan çəkinirlər.

Yeri gəlmişkən bunu da vurğulamaq lazımdır ki, hazırda dünyada geni dəyişdirilmiş çox növdə məhsul var. Qarğıdalı, pomidor, kartof, düyü, soya, buğda, balqabaq, günəbaxan tumu, fıstıq və bəzi nadir tapılan balıq növləri bu məhsulların önündə yer alır. Bunlardan əlavə, hazırda banan, moruq, çiyələk, gilas, ananas, bibər, qovun, qarpız da gen dəyişdirilməsinə məruz qalıb. Bu cür meyvə-tərəvəzləri ilk baxışda sezmək o qədər də çətin deyil. Belə məhsullar, adətən, çox parlaq, görünüş etibarilə saf, normadan böyük, üzəri sanki mumiyalanmış və sürüşkən olur. Günlərlə isti yerdə qalsa da, yumşalmır, gec xarab olur, ləti möhkəmliyilə seçilir. Təbii qoxusu, demək olar ki, olmur.

Bu baxımdan muxtar respublikada əhalinin ekoloji təmiz kənd təsərrüfatı məhsulları ilə təminatının dövlət nəzarətində saxlanılması, əkinçilikdə daha çox ənənəvi, yerli toxum növlərindən istifadəyə üstünlük verilməsi, gömrük-keçid məntəqələrində mənşəyi bəlli olmayan ərzaq və kənd təsərrüfatı məhsullarına qadağaların qoyulması vətəndaşların sağlamlıqlarının qorunmasına göstərilən diqqətin bariz nümunələrindən biridir. Bütün bunlar bir daha təsdiq edir ki, “Toxumçuluq haqqında” Naxçıvan Muxtar Respublikasının Qanunu muxtar respublikada aqrar sektorun daha sağlam təməllər üzərində inkişaf etdirilməsinə zəmanət verir.

Digər bir məqam isə ondan ibarətdir ki, kənd təsərrüfatı məhsullarının maya dəyəri əsas etibarilə nəqliyyata, toxum, yanacaq və enerji daşıyıcılarına sərf olunan məsrəflərin artımı nəticəsində yüksəlir. Bu isə, son nəticədə, məhsulun istehlakçıya baha qiymətə satılması ilə yanaşı, aqrar sahənin davamlı inkişaf imkanlarını da məhdudlaşdırır. Ona görə bu inkişafa nail olmaq üçün problemlərin həllinə dövlət tərəfindən kompleks şəkildə yanaşılır. Toxumçuluq haqqında yeni qanunun qəbulu isə dövlətin bu sahədəki hədəflərindən xəbər verir.

✍ **Səbuhi HƏSƏNOV**

*Muxtar respublikada reallaşdırılan iqtisadi siyasətin əsas məqsədlərindən biri də ərzaq təhlükəsizliyinin təmin edilməsidir. Bunun üçün daxili bazarın tələbatına uyğun yerli məhsul istehsal edən müəssisələrin yaradılması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir. Məhz həmin tədbirlərin nəticəsidir ki, bazar iqtisadiyyatının tələblərinə uyğun rəqabətqabiliyyətli müəssisələr yaradılır. Belə müəssisələrdən biri də Naxçıvan şəhərində fəaliyyət göstərən “Gəmiqaya Bərəkət Qida Məhsulları” Məhdud Məsuliyyətli Cəmiyyətidir.*

*İstehsal müəssisələri*

# Yerli müəssisələr daxili bazarın keyfiyyətli məhsullarla təminatına üstünlük verir




Dövlət maliyyə dəstəyi ilə müəssisədə çörək, makaron, peçenye və süd məhsulları istehsalı sahələri yaradılıb. Burada Almaniya, Türkiyə və İtaliya istehsalı olan müasir texnoloji avadanlıqlar quraşdırılıb. Müəssisəyə Sahibkarlığa Kömək Fondundan 2008-ci ildə əlavə dövlət maliyyə dəstəyi göstərilib. Bu vəsaitlə çörək sexində istehsal gücü saatda 3000 ədəd çörək olan tam avtomatlaşdırılmış yeni xətt istifadəyə verilib. Burada 5 növ çörək unundan hazırlanan 12 çeşid çörək, lavaş istehsalı sahəsində isə saatda 4 çeşiddə üç min ədəd lavaş istehsal olunur.

“Gəmiqaya Bərəkət Qida Məhsulları” MMC-də istehsal sahələri ilbəil genişləndirilir. 2012-ci ildə burada kəpəkli çörək istehsalına başlanılıb. İnsan sağlamlığı üçün vacib elementlərlə zəngin olan kəpəkli çörək keyfiyyətli qida məhsulu kimi alıcılar tərəfindən rəğbətlə qarşılanır.

Makaron sexində istehsal edilən müxtəlif növdə makaron 350, 500 qramlıq paketlərə, 10 kiloqramlıq kisələrə qablaşdırılır. İtaliya istehsalı olan 4 ədəd qurutma sobasından istifadə etməklə, saatda 300 kiloqram makaronun istehsal edilməsi daxili bazara öz töhfəsini verir. 2011-ci ildə müəssisədə Türkiyə istehsalı olan müasir texnoloji avadanlıqlar tətbiq olunmaqla Şərq şirniyyatları istehsalı sahəsi yaradılıb, burada hazırlanan milli şirniyyat nümunələrimiz – şəkərbura, Ordubad və Şəki paxlavaları, müxtəlif çeşidlərdə qat-qat, şəkərçörək, şirin çörək, biskvit və digər unlu-qənnadı məmulatlar nəfis tərtibatla bəzədilmiş taralarda satışa çıxarılır. Şirniyyat istehsalı sahəsində İran, Türkiyə avadanlıqlarından istifadə edilərək saatda 200 kiloqram peçenye, 2 ton müxtəlif şirniyyat istehsal olunur.

Müəssisədə fəaliyyət göstərən süd istehsalı sahəsində Hollandiya, Almaniya və Türkiyə avadanlıqları vasitəsilə gün ərzində 15 ton, 10 çeşiddən çox müxtəlif çəkilərdə süd məhsulları istehsal olunur. Fermer və fərdi sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərdən xammal şəklində alınan süd məhsulları xüsusi maşınlarla müəssisəyə daşınıb laborator analizdən keçirildikdən sonra istehsala buraxılır. Sanitar-gigiyenik qaydalara ciddi əməl olunduğu müəssisədə müasir avadanlıqlarla təchiz olunmuş iki laboratoriya fəaliyyət göstərir. Müəssisəyə daxil olan xammal və ya hazır məhsul həmin laboratoriyada analizdən keçirildikdən sonra istehsala buraxılır və ya satışa çıxarılır. İstehsal sahələrində istifadə olunan xammalların 60 faizi yerli məhsullardır.

“Gəmiqaya Bərəkət Qida Məhsulları” Məhdud Məsuliyyətli Cəmiyyətində bütün proseslər İSO keyfiyyəti idarəetmə sisteminin və qida təhlükəsizliyinin tələblərinə tam uyğun şəkildə təşkil olunub. Müəssisədə 220 nəfər işçi çalışır, onlar gündə bir dəfə yeməklə təmin olunurlar.

Ayrı-ayrı ticarət obyektlərində alıcı və satıcıların bu yerli məhsullara olan münasibəti haqda söhbət edərkən öyrəndik ki, əvvəllər alıcılar xaricdə istehsal olunan ərzaq və qeyri-ərzaq məhsullarına üstünlük verirdilərsə, indi artıq muxtar respublikada istehsal olunan məhsullara daha çox maraq göstərirlər.

✍ **Ramiyyə ƏKBƏROVA**

# Əmək yarmarkası təşkil edilib



İşaxtaran vətəndaşların müvafiq iş yerləri ilə təmin olunması məqsədilə muxtar respublikanın şəhər və rayonlarında vaxtaşırı təşkil olunan əmək yarmarkaları aktiv məşğulluq tədbirlərindən sayılmaqla vətəndaşların böyük əksəriyyətinin daimi işlə təmin edilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Növbəti belə əmək yarmarkası Naxçıvan Regional Peşə Tədris Mərkəzində keçirilib.

Tədbiri giriş sözü ilə Naxçıvan Şəhər Məşğulluq Mərkəzinin direktoru Əli Məmmədov açaraq qeyd edib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il yanvarın 11-də imzaladığı Sərəncam ilə təsdiq edilmiş “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı” muxtar respublikamızda yeni iş yerlərinin açılmasına, regiondakı əmək ehtiyatlarının iqtisadi fəallığının yüksəldilməsinə öz töhfəsini verir.

Son illərdə Naxçıvan şəhərində aparılan tikinti-quruculuq işlərinin genişləndirilməsi, müxtəlif istehsal və xidmət sahələrinin yaradılması nəticəsində xeyli iş yerləri açılıb. Bu da işaxtaran vətəndaşların qarşısında geniş imkanlar açır. Keçirilən əmək yarmarkaları isə əhalinin məşğulluğunun təmin olunmasında və sosial müdafiəsinin yaxşılaşdırılmasında mühüm rol oynayır.

Naxçıvan Şəhər İcra Hakimiyyətinin əməkdaşı İsmayıl Gülməmmədov bildirib ki, aparılan məqsədyönlü siyasət nəticəsində muxtar respublika sakinlərinin rifah halı yaxşılaşıb. Mütəmadi olaraq təşkil edilən əmək yarmarkaları isə əhalinin məşğulluğunun təmin edilməsi istiqamətində qarşıya qoyulan vəzifələrin icrası yönündə həyata keçirilən tədbirlərdəndir.

Qeyd edək ki, əmək yarmarkasına 62 müəssisədən 575 boş iş yeri təqdim olunub. Yarmarkada 42 nəfərə işə göndəriş verilib.

✍ **Nail ƏSGƏROV**

# Texniki-Peşə və Sürücülük Məktəbi günün tələblərinə uyğun fəaliyyət göstərir



***Muxtar respublikada texniki-peşə təhsili pilləsi cəmiyyətin müxtəlif inkişaf mərhələlərində formalaşaraq tarixi bir yol keçib və ixtisaslı kadrlara olan tələbatın ödənilməsində mühüm rol oynayıb. Xüsusən 1995-ci ildən sonrakı dövrdə muxtar respublikanın texniki-peşə məktəblərində təlim-tərbiyə prosesinin səmərəliliyinin yüksəldilməsi, gənclərin peşə və fənlərə olan maraq və meyillərinin artırılması, onların istedad və biliklərinin üzə çıxarılması, pedaqoji prosesin forma və metodlarının təkmilləşdirilməsi istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilib. Bu gün Naxçıvanda gənclərə peşə təhsili vermək üçün hər cür şərait yaradılıb. Muxtar respublikanın istənilən rayonundan, hətta Azərbaycanın digər bölgələrindən də müraciət edənlər bu məktəblərdə təhsil ala bilərlər.***

2012-ci il avqust ayının 15-də istifadəyə verilən Naxçıvan Texniki-Peşə və Sürücülük Məktəb Kompleksi də muxtar respublikada texniki-peşə təhsilinin müasir standartlarda həyata keçirilməsinə imkan verir.

Ötən günlərdə qonağı olduğumuz məktəb haqda qısa məlumat verərək qeyd edək ki, bu təhsil ocağı nəinki bölgəmizdə, hətta ölkəmizdə yüksək şəraitə və maddi-texniki təchizata malik olan məktəblərdən biridir. Burada 4 elektron lövhəli sinif, 2 metodik kabinə, 2 avtotrenajor sinfi var. Sinif otaqları lazımi avadanlıqlarla təchiz edilib, kompüterlər internetə qoşulub.

Yaradılan şərait məktəbdə təhsil alan müdavimlərin sürücülük və texniki peşələrə yiyələnməsinə, yol hərəkəti qaydalarını dərindən mənimsəmələrinə imkan verir. Təbii ki, belə təhsil şəraiti nəqliyyat vasitələrindən düzgün istifadəyə və yol hərəkətinin təhlükəsizliyinə təminatdır. İki mərtəbədən ibarət olan binada 23 sinif otağı vardır. Binanın birinci mərtəbəsində sənədlərin qəbulu otağı, tibb məntəqəsi, anbar, iş otaqları, kombayn və traktorların, minik avtomobillərinin quruluşu və istismarı, təcrübə-məşğələ və avtotrenajor sinifləri yerləşir. Sinif otaqlarında nəzəri dərslərin keçilməsi üçün hər cür şərait yaradılıb, məlumat stendləri, müxtəlif avtomobil və kənd təsərrüfatı texnikalarının hissələri qoyulub. Sözsüz ki, bütün bunlar keçilən dərslərin praktik olaraq daha yaxşı mənimsənilməsini, kənd təsərrüfatı texnikaları üzrə bacarıqlı mütəxəssislərin hazırlanmasını şərtləndirən başlıca amillərdir.

Sürücülük peşəsinə yiyələnmək istəyənlər avtotrenajor siniflərində avtomobillərin idarə edilməsini praktik olaraq mənimsəyirlər. Avtotrenajorlardan biri yük, digəri isə minik maşını tiplidir. Bu avtotrenajorlar ölkəmizdə ilk dəfə olaraq Naxçıvan Texniki-Peşə və Sürücülük Məktəbində tətbiq olunub. Avtomobil ilə eyni sistemə malik kabinədən ibarət olan avtotrenajorlarda müxtəlif yol şəraitinə və sürət həddinə uyğun təlimlər keçirilir və sürmənin nəticələri avtomatik olaraq kompüter idarəetmə sisteminə göndərilir. Təlimlərin səmərəli təşkili və müdavimlərin yüksək səviyyədə hazırlanması gələcəkdə baş verə biləcək yol-nəqliyyat hadisələrinin ilkin mərhələdə qarşısının alınması və avtonəqliyyat vasitələrindən düzgün istifadə baxımından əhəmiyyətlidir.

Binanın ikinci mərtəbəsində metodik kabinələr, kompüter otağı, tibbi hazırlıq, yol hərəkəti qaydaları və ümumi hərbi hazırlıq sinifləri, müəllimlər otağı, elektron lövhəli siniflər, təlimatçı otağı və arxiv vardır. Kompüter otağında 18 kompüter qoyulub və internetə çıxışları təmin edilib.

Naxçıvan Texniki-Peşə və Sürücülük Məktəbinin yataqxanası və yürüş-təlim meydançası müasir tələblər səviyyəsindədir. Burada aparılan kompleks quruculuq işləri çərçivəsində inşa olunan yataqxana binası müasir tələblərə cavab verir. Məktəb kompleksində yataqxana binasının yaradılması təhsil alanların rahatlığı baxımından əhəmiyyətlidir. Bu, tədrisin keyfiyyətinin yüksəldilməsinə və davamiyyətin təmin olunmasına imkan verir. Təlim meydançasında yol hərəkəti qaydalarına və müxtəlif yol nişanlarının tələblərinə əməl etməklə avtomobillərin idarə olunması praktik olaraq öyrədilir, müdavimlər əyani sürmə vərdişlərinə yiyələnirlər. Bu ilin ötən dövrü ərzində məktəbi 622 nəfər bitirib ki, onlardan da 96-sı qadındır.





Məktəbdə sürücülük peşəsinin sirlərini öyrənən Günay Rzayeva deyir ki, muxtar respublikada ictimai asayişin qorunmasında əldə edilən nailiyyətlərin, Naxçıvanın bugünkü inkişafının insanların düşüncə tərzinə də müsbət təsir göstərməsi bir çox qadınlar kimi, onun da sürücülük peşəsinə yiyələnmək həvəsini artırıb. Buna görə də o, bu məktəbə müraciət edib. Məktəbdə yaradılan şəraitdən minnətdarlıqla danışan Günay Rzayeva bildirir ki, burada bizim bu peşəni yaxşı öyrənməyimiz üçün bütün imkanlar mövcuddur, hər şey dəqiqliklə hazırlanıb. Məktəbin müəllim heyəti isə peşəkarlardan ibarətdir və onlar bir sürücünün bilməsi vacib olan bilikləri müdavimlərə bütün incəlikləri ilə mənimsədir, qarşılarına çıxan hər bir çətinlikdə onlara kömək edirlər. Burada yaradılan şəraitə görə dövlətimizə minnətdarıq.

Məktəbin direktoru Rəfail Abdullayev muxtar respublikada əvvəlki dövrdə baş verən avtomobil qəzaları ilə müqayisədə indi belə qəzaların sayının xeyli azaldığını dedi. Qeyd etdi ki, avtomobil qəzalarının çox olmasının obyektiv səbəbləri var idi. Bu qəzalara yolların darlığı və istismara yararsızlığı ilə bərabər, sürücülərin səriştəsizliyi və məsuliyyətsizliyi, nəqliyyatın təhlükəsizliyinə nəzarətin zəifliyi də şərait yaradırdı. Bütövlükdə, muxtar respublikanın yol təsərrüfatı, xüsusən yerli avtomobil yolları sistemində idarəetmə quruluşu köhnə olduğundan ümumi istifadədə olan yolların saxlanmasını, inkişafı və abadlaşdırılmasını təmin edə bilmirdi. Ancaq 1995-ci ildən sonra bu sahədə müsbət dəyişikliklər baş verdi. Bunun nəticəsidir ki, müasir dövrümüzdə muxtar respublikada nəqliyyat vasitələrinin bəhs etdiyim dövrdən qat-qat çox olmasına baxmayaraq, qəza halları ilə az-az qarşılaşırıq. Təbii ki, bu işdə Naxçıvan Texniki-Peşə və Sürücülük Məktəbinin də xüsusi rolu vardır. Qeyd edim ki, məktəbin yaradılmasından sonrakı ilk mərhələdə sürücülük vəsiqəsinin asan əldə olunması tendensiyası aradan qaldırılıb. Məktəbin müdavimlərinin sonrakı fəaliyyəti də xüsusi diqqət yetirilən məsələlərdəndir. Sevindirici haldır ki, onlar arasında yol hərəkəti qaydalarını pozan, səkiləri zəbt edən, sürət həddini aşan, avtomobilini qaydasız və pərakəndə park edən və sair avtomobil qəzalarının artmasına şərait yaradan sürücülər, demək olar ki, yox dərəcəsindədir. Bu da, təbii ki, məktəbin müəllim heyətini ruhlandırır, yeni-yeni nailiyyətlər qazanmağa həvəsləndirir.

Məktəbin müəllimlərindən Həsən Əliyev isə bildirdi ki, tədris prosesində gənc sürücülərə onu aşılamağa çalışırıq ki, bütün qayda və qanunlar, ilk növbədə, həmin sürücünün həyatının və ətrafdakıların təhlükəsizliyinə hədəflənib. Çünki dövlətimiz üçün ən vacib olan öz vətəndaşının sağlamlığı, təhlükəsizliyidir. Müdavimlərimizlə söhbətlərimiz zamanı dəfələrlə qeyd edirik ki, yüksək sürücülük mədəniyyəti qəzaların qarşısını alacaq çox mühüm faktordur. Əgər bir sürücü yolda qəza vəziyyəti yaradırsa, təkcə özünün yox, o arazidə olanların da həyatını təhlükə altında qoyur, baş verən qəza təkcə onun deyil, başqaları üçün də geriyə qaytarılması mümkün olmayan nəticələrə səbəb olur. Çalışırıq ki, məktəbdə təhsil alan müdavimlər yaxşı mütəxəssis kimi yetişsinlər.

Bəli, Naxçıvan Muxtar Respublikasında təhsilin bütün sahələri kimi, peşə təhsilinin inkişaf strategiyası hələ müstəqil dövlət quruculuğunun ilk illərində ulu öndər Heydər Əliyevin tapşırığı ilə hazırlanıb və həmin kurs indi də müvəffəqiyyətlə davam etdirilir. Günü-gündən yeniləşən Naxçıvan özünün hazırkı sürətli inkişaf dövründə ötən hər ili sosial-iqtisadi həyatda əldə olunan mühüm nailiyyətlərlə başa vurur. Bu illərdə uğurla həyata keçirilən dövlət proqramları əsasında muxtar respublikanın sosial-iqtisadi strategiyasına uyğun olaraq bir sıra mühüm tədbirlər reallaşdırılıb. Ölkə iqtisadiyyatının inkişaf tələblərinə uyğun ixtisaslı kadrlara yaranan tələbatın ödənilməsi, habelə əhalinin müasir peşə təhsili almaq imkanlarının təmin edilməsi üçün iqtisadi və sosial baxımdan səmərəli texniki-peşə təhsili sisteminin formalaşdırılması mühüm əhəmiyyət daşıyır.

Dövlət proqramlarının tələblərinin yerinə yetirilməsi və bu gün muxtar respublikamızın həyatında baş verən sosial-iqtisadi dəyişikliklər, yeni sənaye və xidmət sahələrinin yaradılması, müasir informasiya texnologiyalarının tətbiqi peşə təhsilinin inkişafı və bu yolla ixtisaslı işçi kadrların yetişdirilməsini də zəruri edib. Artıq müasir dövrdə peşə təhsili günün tələbinə çevrilib. Bu tələbatın dolğun ödənilməsi üçün infrastruktur təminatı yüksək səviyyədədir. İndi əsas məsuliyyət peşə təhsili sahəsində çalışanların üzərinə düşür.

**Nail ƏSGƏROV**

# Milli kinomuzu təbliğ edən məkan

## *Naxçıvan Dövlət Film Fondu*

***Azərbaycan kino sənəti əlamətdar hadisələrlə zəngin özünəməxsus inkişaf yolu keçmiş və xalqımızın mədəni-mənəvi həyatında mühüm rol oynamışdır. Ölkəmizdə onun yaranma tarixi XIX əsrdən etibarən cərəyan edən maarifçilik hərəkatının, dünyəvi teatrın və mətbuatın inkişafı ilə sıx bağlıdır.***



Bu gün isə bir çox istiqamətlərdə inkişaf edən ölkəmiz kino sahəsində də öz uğurlu addımlarını atır. Yeni filmlər çəkilir, onlar geniş tamaşaçı auditoriyasına təqdim edilir. Bəs bu filmlər muxtar respublikamızda necə nümayiş olunur? Filmlərimizin təbliği sahəsində hansı işlər görülür? Suallarımıza cavab almaq üçün Naxçıvan Muxtar Respublikasının Mədəniyyət və Turizm Nazirliyinin nəzdində fəaliyyət göstərən Naxçıvan Dövlət Film Fondunun direktoru Mirakif Seyidovla həmsöhbət olduq. O dedi:

– 2000-ci ilin yanvar ayında Azərbaycan Dövlət Film Fondunun Naxçıvan filialı kimi yaradılan müəssisə 2006-cı ildən Mədəniyyət və Turizm Nazirliyinin nəzdində Naxçıvan Dövlət Film Fondu kimi müstəqil şəkildə fəaliyyət göstərir. Fondda 4700-dən artıq film qorunur ki, bunlar da elmi-kütləvi, dublyaj, qısametrajlı, sənədli, bədii, uşaq, cizgi və sair olmaqla, müxtəlif janrlarda çəkilən filmlərdir.

Naxçıvan Dövlət Film Fondu milli kinomuzun təbliğatı işi ilə də məşğul olur. Belə ki, ötən ildən fondun nəzdində Naxçıvan Kino Klubu yaradılıb ki, bu klub vasitəsilə istedadlı gənclər üzə çıxarılır və onlar düzgün istiqamətləndirilir. Klubda teatr-sənət sahəsindən olan şəxslər toplanıb.

Klubun təşkilatçılığı ilə özfəaliyyət teatr kollektivlərinin muxtar respublika baxış-müsabiqəsi keçirilib. Müsabiqəyə muxtar respublikanın müxtəlif mədəniyyət ocaqlarından 11 kollektiv qatılıb. Bu yaxınlarda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun Tədbirlər Planına uyğun olaraq Naxçıvan Dövlət Musiqili Dram Teatrında hazırlanan, uğurlu premyerası keçirilən "Göy quş" tamaşasında bu kollektivlərdən 3 nəfər iştirak edib. Gələcəkdə də foto və ssenari müsabiqələrinin keçirilməsi gözlənilir.

Ötən ildən Mədəniyyət və Turizm Nazirliyinin təşəbbüsü ilə həftənin cümə günləri Naxçıvan Muxtar Respublikasında Azərbaycan Kinosu Günü kimi qeyd olunur. Muxtar respublikanın müxtəlif rayonlarına qastrol səfərləri edilir, sovetlər dövründə çəkilmiş filmlər, eyni zamanda müasir filmlər nümayiş olunur. Uşaqlar da diqqətdən kənarda qalmır, onlar üçün də uşaq bədii və cizgi filmləri göstərilir.

Muxtar respublikada fəaliyyət göstərən təhsil müəssisələrinin V-VIII sinif şagirdləri arasında kinoviktorinalar keçirilib. Viktorinalar uşaqların kino biliyinin yoxlanılması məqsədilə təşkil olunub. İlkin mərhələsi hər bir rayonda ayrı-ayrılıqda keçirilən yarışın Naxçıvan şəhərində baş tutan yekun mərhələsində Ordubad rayon Dəstə kənd 1 nömrəli tam orta məktəbin kollektivi qalib olub. Yeni tədris ilində ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri arasında da kinoviktorina keçirməyi planlaşdırmışıq.

Bir çox qurumlardan da uşaqlar buraya tez-tez üz tuturlar. Bununla yanaşı, hərbi hissələrlə, ali və orta ixtisas təhsili müəssisələri ilə müqavilələr bağlamışıq ki, biz onlarla da tez-tez görüşürük. 26 iyun ərəfəsində hərbçilərin qonağı olduq, qəhrəmanlıq mövzusunda müxtəlif filmlər nümayiş etdirdik.

Fondun direktoru qeyd etdi ki, burada filmlərin lentlərinin təmizlənməsi işi ilə də ciddi məşğul olunur. Onlar xüsusi qayda ilə bakteriya və tozlardan təmizlənir, qutuları mütəmadi olaraq üzlənilir, pasportlaşdırılır. Digər təşkilatlarla da fəal əməkdaşlıq edən fondun nəzdində kino muzeyi də fəaliyyət göstərir. Burada müxtəlif dövrlərdə çəkilmiş filmlərdə istifadə olunan geyimlər, bəzək əşyaları, silahlar və sair qorunur, eyni zamanda nümayiş etdirilir.

Mirakif Seyidov Fonda göstərilən diqqət və qayğıdan da danışdı:

– Bu gün bütün rayon mədəniyyət evlərində kinoteatrlar fəaliyyət göstərir. Mədəniyyət evləri müasir videoproyektorlarla, texniki avadanlıqlarla təmin olunub ki, bu da qastrollar zamanı bizim işimizi xeyli asanlaşdırır. Bundan əlavə, Azərbaycan Dövlət Film Fondu ilə qarşılıqlı əlaqə üçün şərait yaradılıb. Təkcə ötən il Film Fonduna Azərbaycan Dövlət Film Fondundan 190 adda film, 11 min 400-dən artıq fotoşəkil gətirilib ki, bunlar da filmlərdən kadrlar və portretlərdir.

Kinonu XIX əsrin ən maraqlı kəşfi də adlandırırlar. Məhz filmlər vasitəsilə insanlara, xüsusilə də uşaqlara mənfi, yaxud da müsbət bir çox şey aşılamaq olar. Buna görə də film seçiminə həssaslıqla yanaşmalı, onun nəyi təbliğ etdiyinə diqqət yetirməli, ssenarisində mənfi nəyinsə olmadığına əminlik yarandıqdan sonra uşaqlarımızı rahatlıqla ekran qarşısında əyləşdirməliyik.

**Fatma BABAYEVA**

*El sənəti*

## Qədim dəmirçilik sənətini bu gün də yaşadanlar var

*İnsan övladının əl əməyi bütün dövrlərdə əvəzsiz rol oynayıb, xüsusən də qədim el sənəti kimi formalaşaraq bu günümüzədək yol gələn dəmirçilik kənd təsərrüfatı işlərində mühüm əhəmiyyətə malik olub. Dəmirçi nağıl və dastanlarımızda da baş qəhrəmanlara öz müsbət ideyalarını gerçəkləşdirməkdə yardımçı olan müsbət obraz kimi təsvir edilib.*

Dəmirçilik, adından da məlum olduğu kimi, Daş dövründən sonra meydana gəlmiş bir sənətdir. Dəmirçi isə bu qədim el və xalq sənətini qoruyub bu günümüzə gətirib çatdıran, zindan üzərində, qolunun gücünə dəmiri "yoğuraraq" müxtəlif formalara salan, ən ağır əmək sərf edən sənət sahibidir. Onun əsas materialları dəmir, çuqun, mis, qalay və digər əlvan metallardır ki, respublikamız da bu təbii sərvətlərlə olduqca zəngindir. Dəmirçi xammalı əridərək qəlibə tökür. Əlbəttə, metalın əridilərək müxtəlif detallara çevrilməsi yalnız bu yolla mümkün deyil. Dəmirçilər əridilərək soyudulmuş metalları dartmaq, burmaq, döymək və naxışlamaq kimi böyük fiziki güc tələb edən işləri də görürlər. Ona görə də onları pəhləvanlarla müqayisə etmək mümkündür.

Azərbaycanın bütün bölgələrində dəmirçilik sənəti əsrlər boyu yaşadılıb və nəsillər dəyişdikcə ondan istifadə formaları da yeniləşib. Ölkəmizin zəngin dəmir filizi yataqları qədim zamanlardan başlayaraq xammal əsasında bu sənətin meydana gəlməsində və inkişaf etdirilməsində mühüm rol oynayıb. Burda bəsit istehsal texnikasına əsaslanan filizəritmədə körüklü kürələrdən istifadə edilib. Proses belə olur: filiz parçaları kömürlə birlikdə kürənin odluğuna qoyulur. Qoşa körük vasitəsilə yaradılan yüksək temperatur filizi əridir. Kürənin odluğundakı qaynar metal kütləsindən ərinti zamanı əmələ gələn pas isə kəfgir vasitəsilə çıxarılır, təmizlənir. Əlbəttə, sırf dəmir əldə etmək üçün bu, kifayət etmir. Odur ki, dəmirçi ərintini saf dəmir halına gələnədək onu zindan üzərində döyür. Çəkic və zindanların əhəmiyyəti, ilk növbədə, burada üzə çıxır. Ona görə də əvvəllər yerli xammaldan hazırlanmış dəmir məmulatı davamlılığı və saflığına görə digər yerdən gətirilənlərdən fərqlənir və üstünlük təşkil edir.

Dəmirçilərin xam və ya köhnə dəmirlərə üstünlük verməsinin səbəbləri var. Belə ki, işlənmiş dəmir ucuz başa gəldiyindən və tərkibi saf olduğundan, onun istehsalı da asan və etibarlı hesab edilir.

Əlbəttə, ən qədim peşə sayılan dəmirçilik təkcə ölkəmizdə deyil, həmçinin muxtar respublikamızda, eləcə də Sədərəkdə ilk əmək alətlərinin hazırlanmasında rol oynayıb. Bölgədə bu peşənin sirlərinə bələd olan dəmirçilər az



olmayıblar. Elə indinin özündə də vaxtilə dəmirçiliklə məşğul olan usta Rəcəb Məmmədov və başqalarının adları hörmətlə xatırlanır. Sovet dönəmində isə bu peşə ilə çörək qazanan sədərəkli ustalar Cəlil Əliyev, Yusif Abdullayev olub.

Yusif Abdullayev bu gün də həmin qədim peşə ilə məşğul olur. O, balaca emalatxanasında bu dədə-baba peşəsini davam etdirir. Çox böyük işlərlə məşğul olmasa da, indi kiçik dəmir alətlər düzəldir. Onunla söhbətimiz zamanı bildirdi ki, qədim dövrlərdə digər sənət dükanları kimi, dəmirçixanalar da, əsasən, bazar və ya karvansaralarda yerləşib. Dəmirçixanalar bir qayda olaraq həm istehsal emalatxanası, həm də satış dükanı kimi ikili səciyyə daşıyıb. Məişət və təsərrüfat alətlərinin xeyli hissəsinin son illərə qədər dəmirçixanalarda hazırlanması da təsadüfi deyildir. Çünki ən kustar üsulla balta, bel, kürək, dəhrə, dəryaz, oraq, çəkic, kərki, bıçaq və sair poladqatlı dəmirdən hazırlanırdı ki, onlar da həm uzunömürlü, həm də ucuz olurdu. Dəmir ustaları təcrübə nəticəsində metalların xassələrini dərindən öyrənməklə istehsal texnologiyasını təkmilləşdirərək daha mükəmməl əmək alətləri hazırlamışlar.

Təcrübəli dəmirçi onu da qeyd etdi ki, müasir texnika və texnologiyaların məişətə və istehsalata dərindən təsir və nüfuzu, təbii ki, bir sıra sənət növlərini sıradan çıxarıb. Lakin elə sənət növləri də var ki, onlar ilkinliklərini qoruyub saxlamaq gücünə malikdir. Belələrinin sırasına daxil olan dəmirçilik bu gün də qədimliyi və ululuğu ilə öz dəyərini və əhəmiyyətini saxlamaqdadır. Dəmirçiliyin folklor qədər yaşı olduğundan, onunla bağlı zərb-məsəllər və atalar sözləri də az deyil. Bu da ondan irəli gəlir ki, dəmirçilik xalqın sevimli sənət növlərindən, dəmirçi isə əməyi əvəzolunmaz ustalardandır.

“Dəmiri isti-isti döyərlər”. Bu müdrik kəlam bugünkü işin sabaha qoyulmamasını özündə əks etdirir və sətiraltı məna da daşıyır. Dəmirçilər də dəmiri isti-isti döyər və məqsədlərinə çatarlar... Məqsədə çatmaq isə əsl dəmir iradə, ağıl və güc tələb edir.

**Səbuhi HÜSEYNOV**

## Muxtar respublikada mərkəzi qan bankı yaradılıb

***Müasir təbabətdə çoxlu müalicə vasitələrinin olmasına baxmayaraq, ən ağır vəziyyətlərdə xəstələrin həyatlarının xilas edilməsi üçün əvəzsiz rol oynayan canlı dərman donor qanıdır. Hemofiliya və talassemiya xəstələrinin müalicəsində qan komponentlərinin və preparatlarının istənilən vaxtda əlçatan olması çox vacibdir və donor qanına tələbatı artırır.***

Müxtəlif travma və yaralanmalar, mürəkkəb cərrahi əməliyyatlar və doğuşlar zamanı qanitirmələrdə, xroniki qanazlığında, irsi və qazanılmış qan xəstəliklərində, onkoloji xəstəliklərdə, daxili orqanların – ürək, böyrək, mədə-bağırsaq, qaraciyər və digər orqanların müxtəlif xəstəliklərində qandan və ya qandan hazırlanmış preparatlardan geniş istifadə olunur. Belə zəruri hallarda qana olan tələbatla bağlı problemlərin həllində qan donorluğunun, xüsusən təmənnasız donorluğun böyük əhəmiyyəti vardır. Muxtar respublikamızda bu xidmət əvvəllər Naxçıvan Muxtar Respublika Xəstəxanası tərəfindən göstərilib. Son illər orada aparılan yenidənqurma işlərinə görə qan xidməti Diaqnostika-Müalicə və Doğum mərkəzlərində həyata keçirilib. Hazırda Naxçıvan Muxtar Respublika Xəstəxanasında mövcud şərait mərkəzi qan bankını yenidən bərpa etməyə imkan verib.

Şöbə müdiri Məmmədəli Həsənov söhbət zamanı bildirdi ki, xəstəxanada yaradılmış Qan bankının fəaliyyəti nəticəsində tezliklə muxtar respublikanın bütün səhiyyə müəssisələrinin qana olan tələbatı ödənilməklə bərabər, burada müxtəlif məqsədlər üçün qanın komponentləri olan plazma, eritrositar, limfositar və trombositar kütlənin alınması, saxlanması və məqsədyönlü istifadəsi də həyata keçiriləcəkdir. Bir sıra damar xəstəliklərinin (obliterasiyedici endoarterit, diabetik angiopatiya), septik vəziyyətlərin, müxtəlif kəskin və xroniki ağır zəhərlənmələrin müalicəsində komponent olan hiperbarik oksigenasiya, plazmoferez və ozonoterapiya üsullarının praktik təbabətdə tətbiqi də muxtar respublika səhiyyəsi üçün yenilik olacaqdır.

Şöbə müdirinin sözlərinə görə, bütövlükdə, son illər strateji əhəmiyyətli məsələ kimi qan xidmətinin inkişafına xüsusi diqqət yetirilir. “Qanın, qan komponentlərinin donorluğu və qan xidməti haqqında” Qanunun, “Qanın, qan komponentlərinin donorluğu və qan xidmətinin inkişafına dair Dövlət Proqramı”nın icrası istiqamətində görülən işlər də öz bəhrəsini verir. Dövlət proqramının müvəffəqiyyətlə yerinə yetirilməsi nəticəsində qan donorlarının sayı 2 dəfədən çox artıb, qan komponentlərinin miqdarı, keyfiyyəti və təhlükəsizliyi xeyli yüksəlib. Əhalinin donorluğa aktiv cəlb edilməsi pullu donorluqdan tam imtina edilməsinə imkan yaradıb. Artıq hər il “Qan donorları, insan həyatını birgə xilas edək”, “Qan ver, yaşat!”, “Sən də bir həyat ver” və digər devizlər altında, eləcə də 17 aprel Beynəlxalq Hemofiliya, 14 iyun Ümumdünya Qan Donoru günləri, aşura mərasimləri, əlamətdar günlərdə keçirilən qanvermə aksiyaları ənənə halını alıb. Hazırda tibb müəssisələrinin və xəstələrin donor qanına olan ehtiyacı tam ödənilir.

**Hüseyn ƏSGƏROV**

## Naxçıvan Muxtar Respublikasının Dövlət Energetika Xidməti üzrə 2017-ci ilin iyul ayında verilən elektrik enerjisinin miqdarı, elektrik enerjisi satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/№ | Şəhər və rayonlar | Verilən elektrik enerjisinin miqdarı (min kvt/saat) | Elektrik enerjisinin dəyəri (min manat) | Toplanan vəsait (min manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Şahbuz rayonu | 444 | 31,4 | 31,5 | 100,3 |
| 2. | Kəngərli rayonu | 642 | 45,6 | 45,7 | 100,2 |
| 3. | Culfa rayonu | 1334 | 94,5 | 94,7 | 100,2 |
| 4. | Ordubad rayonu | 1463 | 103,9 | 104,0 | 100,1 |
| 5. | Naxçıvan şəhəri | 5926 | 444,3 | 444,3 | 100,0 |
| 6. | Sədərək rayonu | 203 | 14,4 | 14,4 | 100,0 |
| 7. | Babək rayonu | 3179 | 225,7 | 199,7 | 88,5 |
| 8. | Şərur rayonu | 2930 | 208,0 | 175,0 | 84,1 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 28850 | 2596,5 | 2596,6 | 100,0 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **44971** | **3764,3** | **3705,9** | **98,4** |

**Qeyd:** İyul ayında texniki itki nəzərə alınmaqla daxil olan 44 milyon 971 min kilovat-saat elektrik enerjisinin dəyəri 3 milyon 764 min 300 manat olmuş, cəmi 3 milyon 705 min 900 manat vəsait toplanmışdır ki, bu da istifadə olunan enerjinin dəyərinin 98,4 faizini təşkil edir.

*Sağlam həyat*

## İdman uşaqların bir fərd kimi mənəvi-psixoloji baxımdan güclənməsində mühüm amildir

Uşaqların son dövrlər ən çox maraq göstərdiyi sahə idmandır. Bəs bu sahənin uşaqlar üzərindəki təsiri necədir? Qeyd edək ki, idman fəaliyyətləri fiziki inkişafa kömək edən bir vasitə kimi qiymətləndirilsə də, uşağın həm təhsilində, həm də gələcək həyatında böyük rol oynayır. Hər idman növünün özünün qaydaları, tənzimləmələr və tətbiqlər, əslində, intizam dediyimiz sistemi həyatımıza tətbiq etməkdədir. Məşq etmək, vaxtında oyuna başlamaq, qaydalara uyğun hərəkət etmək uşağın bütün iradi keyfiyyətlərinə təsir göstərən amillərdir.

Məğlub olmamağa çalışmaq, təkrar sınamaq, sağlam rəqabətə girmək, hakimlə, məşqçi ilə, komanda yoldaşları ilə ünsiyyət qurmaq, bu ünsiyyəti qoruyub saxlamaq, məqsədi naminə çalışmaq, hədəflərə doğru inamla irəliləmək uşağın həm də mənəvi-psixoloji baxımdan güclənməsinə səbəb olur, əhəmiyyətli və lazımlı bacarıqların formalaşmasına yol açır. İdman fəaliyyətinin qazandırdığı mənəvi və fiziki bacarıqlar uşağın gələcəkdə cəmiyyətdə layiqli yer tutmasına rəvac verir, sağlam bir fərd kimi pis vərdişlərdən uzaq olmasına kömək edir, məsuliyyət duyğusunu artırır.

Uşaqlar hər hansı idman növü ilə məşğul olmadan əvvəl mütləq tibbi müayinədən keçirilməlidirlər. Uşağın sağlamlıq problemi varsa, həkim tərəfindən müəyyən olunub, özünə uyğun olan idman növünün seçilməsi təmin edilə bilər.

Uşaqlıq dövründə edilən idmanlar daha çox oyuna söykənən olmalıdırlar. Uşaqlara ağırlığa meyilli idman növləri ilə məşğul olmaq zərərlidir. Çünki onlar inkişaf mərhələsindədirlər, ürək tutumları fərqlidir. Ona görə də uşaqlar həddindən artıq güc sərf edəcəkləri idman növləri ilə məşğul olmamalı və ya məşqlərin müddəti az olmalıdır.

Dörd yaşından etibarən hər bir uşaq idman etməyə başlaya bilər. Bu yaşlarda uşaqlar fərdi işlərdən çox qrup idmanlarına istiqamətləndirilməlidir. 4-9 yaş arası uşaqlar üzgüçülük, gimnastika, atletika ilə məşğul ola bilər. Bunlar daha çox oyuna söykənən idmanlardır. 9-11 yaşlarına gəldikdə isə voleybol, basketbol, futbol, tennis, alətli gimnastika kimi texniki bacarıqlarının inkişaf etdirilməsinə yardımçı olan idman növlərinə istiqamətləndirilə bilərlər.

Uşağın peşəkar idmançı kimi formalaşmağını istəyirsinizsə, əvvəlcə bu yolun çox çətin olduğunu qəbul etməlidir. Bu zaman yalnız düzgün istiqamətləndirmə müsbət nəticə verə bilər. Səhv istiqamətləndirmə onun idmandan soyumasına və uzaqlaşmasına səbəb olar. Əgər məqsəd uşağın peşəkar idmana yönəlməsini təmin etmək deyilsə, hər yaşda istədiyi idmana başlaya bilər. Ancaq burada əhəmiyyətli olan ona uyğun bir proqram seçilməsi və xüsusi məşqlərə erkən deyil, irəliləyən dövrdə başlamasıdır. Yaşın da mütləq nəzərə alınması lazımdır.

Uşaqların idmana cəlb edilməsi məsələsində valideynlərin üzərinə böyük məsuliyyət düşür. Onlar uşaqlarının idman fəaliyyətlərini dəstəkləmək üçün müəyyən qaydalara riayət etməlidirlər. Bu qaydalar aşağıdakılardır:

*– idmanı gündəlik həyata daxil etmək;*

*– erkən yaşlardan etibarən idmanın əhəmiyyətini anlatmaq;*

*– ailə üzvləri ilə birlikdə keçirilən zamanlarda idmana xüsusi yer vermək;*

*– uşaqları idman müsabiqələrində iştiraka təşviq etmək.*

Onu da qeyd edək ki, bəzən uşağı idman sahəsinə istiqamətləndirərkən düzgün addımlar atılmır. Yəni məşqçi və valideyn arasında müəyyən ziddiyyətlər yaranır. Ümumiyyətlə, uşağı idmana cəlb edərkən ilk olaraq, mütləq onun marağı göz önündə tutulmalıdır və uşağa ən az bir ay sınaq müddəti qoyulmalıdır. Belədə həm ailə, həm də uşaq həmin idman növünün ona uyğun olub-olmadığına qərar vermək imkanı əldə edər.

Bu məqamda vurğulayaq ki, idman özünəinamın inkişafına təsir göstərir. Psixoloqların təbirincə desək, uşaqlar özlərini ifadə etdikləri ölçüdə inkişaf edərlər. Bu səbəblə idman uşağın özünü inkişaf etdirməsinə böyük imkan yaradır, onda özünəinam ətrafda gördükləri reaksiyalarla formalaşır.

İdmanla məşğul olmaq uşağın məktəbdəki müvəffəqiyyətinə də müsbət təsir göstərir. Belə uşaqlar fiziki güc qazanmaqla bərabər, mənəvi keyfiyyətlər də əldə edirlər ki, bu da onların şəxsiyyət kimi formalaşmasında mühüm rol oynayır.

**Ceyhun MƏMMƏDOV**

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Hüseynov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 631